23-cü Azərbaycan Beynəlxalq
İnşaat Sərgisi

Press-reliz
25.10.2017

18-21 oktyabr tarixlərində "Xəzər İnşaat Həftəsi" Bakı Ekspo Mərkəzində öz işinə başlayıb. Regionda iştirakçıların sayına görə qeyri-neft sektorunun ən böyük tədbiri – "Xəzər İnşaat Həftəsi" çərçivəsində təşkil olunan üç sərgi – Azərbaycan Beynəlxalq İnşaat "WorldBuild Baku", 10-cu Yubiley Beynəlxalq İstilik, Havalandırma və Kondisiyalaşdırma sistemləri, Su təchizatı, Sanitariya, Ətraf Mühitin Mühafizəsi Texnologiyaları, Üzgüçülük Hovuzu və Bərpa Olunan Enerji Aquatherm Baku 2017 və 10-cu Yubiley Xəzər Beynəlxalq Mühafizə, Təhlükəsizlik və Xilasetmə Vasitələri SECURIKA CASPIAN 2017 Sərgiləri, Bakı Ekspo Mərkəzinin iki salonunu əhatə edib.
Bu il "Xəzər İnşaat Həftəsi"ndə dünyanın 28 ölkəsindən 310 şirkət iştirak edib.

Sərgilərin açılışına həsr olunmuş mətbuat konfransı keçirildi və konfransında Anar Quliyev – Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin Aparat rəhbəri, Edvard Stroon – "İTE Group" şirkətinin regional direktoru, Maya Qafarlı – "WorldBuild Baku" sərgisinin meneceri və Rəşad Qədimov – "Aquatherm Baku" və "Securika Caspian" sərgilərinin meneceri çıxış ediblər. Mətbuat konfransında 20-dən artıq KİV nümayəndələri iştirak etmişdi, onların arasında AzTv, APA, Azertag, CBC, ITV, Interfax, Vestnik Kavkaza, Report, TREND və s.

Sərgilərin rəsmi açılış mərasimində cənab Niyazi Səfərov, İqtisadiyyat Nazirinin müavini, cənab Sadiq Sadıqov, Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin direktorunun müavini, cənab Elxan Əsədov, Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Rəis müavini, cənab Elbəy Qasımzadə, Azərbaycan Memarlar İttifaqının İdarə heyətinin sədri və cənab Edvard Stroon – İTE Qrup şirkətinin regional direktoru çıxış ediblər.

Cənab Niyazi Səfərov qeyd etdi ki, sərgi ölkənin tikinti sənayesinin inkişafının mühüm əlamətlərini əks etdirir. Sərgi Azərbaycan iqtisadiyyatının diversifikasiyasını, milli məhsulların rəqabət qabiliyyətinin artırılmasını və əhalinin iş yerləri ilə təmin edilməsini açıq şəkildə nümayiş etdirir. "WorldBuild Baku" sərgisi sayəsində yerli şirkətlərlə işgüzar əməkdaşlıq qurmaq istəyən xarici investor və istehsalçıların Azərbaycana marağı artır.
S. Sadıqovun sözlərinə görə, sərginin keçirilməsi nailiyyətləri müvəffəqiyyətlə əks etdirir və 2016-cı ildə yaradılan Agentlik "WorldBuild Baku" sərgisinin təşkilatçıları ilə sıx əməkdaşlıq etməyə başlayıb. "Sərgi qeyri-neft sənayesində ölkə iqtisadiyyatına müsbət təsir göstərən tikinti sənayesinin mötəbər nüfuzunu formalaşdırır", cənab Elxan Əsədov öz çıxışında bildirib.

Elbəy Qasımzadə bildirib ki, hər hansı inkişaf edən cəmiyyətin əsasını şəhərsalmanın inkişafı baxımından böyük məsuliyyətə malik olan memarların peşəkarlığından çox asılı olan fəal tikinti işləri təşkil edir. Tikinti sektorunu hər cür dəstəkləmək lazımdır.

Cənab Edvard Stroon toplaşanları sərgilərin açılış gününə təsadüf edən Azərbaycan Respublikasının Müstəqillik Günü münasibəti ilə təbrik edərək bütün dəstəkləyən strukturlara diqqət və sərgidə fəal iştirakına görə minnətdarlıqlarını bildirib.

Əlaqələndirici şəxs: Svetlana Hacıyeva
Tel.: +994 12 404 1008; Faks: +994 12 4041001;
E-poçt: prmanager@iteca.az; Veb-sayt: www.worldbuild.az, www.securika.az, www.aquatherm.az

“WorldBuild Baku” sərgisi tikinti və memarlıq, layihələndirmə və təmir sahəsində bütün regionun ən mühüm peşəkar tədbiri hesab olunur. Hər il müxtəlif dünya ölkələrini təmsil edən minlərlə mütəxəssis bu sərgini ziyarət edir və burada biznes tərəfdaşları ilə əlaqə yaradır.

Azərbaycan Beynəlxalq İnşaat “WorldBuild Baku” sərgisinin iştirakçılarının 30%-nı yeni şirkətlər təşkil edib. Sevindirici haldır ki, sərgi iştirakçılarının 40%-ı də yerli şirkətlərdən ibarət idi və bura inşaat sahəsində fəaliyyət göstərən istehsalçı, distributor və şirkətlər daxil olubdur. “Made in Azerbaijan” brendi altında istehsal olunan yerli məhsullar xarici eksponentlər üçün ciddi rəqabət təşkil edibdir. Bu il sərginin daimi iştirakçıların arasında “Akkord”, “Altis group”, Baku Steel Company, “Faxraddin-K”, “Gilan Holing”, “Kartash”, “Komiforest”, “Nabucco”, “NB Group”, “Safe Life”, “Nimex”, “ Sobsan boya”, “Technogym”, “Yukseklik”, “Vebrostone” və digər şirkətlər yer alıbdır. “WorldBuild Baku” 2017 sərgisinin sponsoru qismində Corella markası (NB Group şirkəti), informasiya tərəfdaşı qismində isə “Dom i İnteryer” (Ev və İnteryer) çıxış edibdir.

“WorldBuild Baku” sərgisinin xüsusiyyətlərindən biri də kollektiv milli stendlərin fəal iştirakıdır. Ənənəvi olaraq, Almaniya, BƏƏ, İran və Polşa öz milli pavilyonlarını təqdim ediblər. Türkiyə, Çin, Rusiya və Çexiya istehsalçıları tədbirdə geniş tərkibdə iştirak ediblər.

Sərgi bu il inşaat materialları, keramika, üzlük daşlar, mərmər, qapı-pəncərə, interyer məhsullarının geniş çeşidini əhatə edir. Lak-boya sektoru isə həm yerli, həm də xarici şirkətlər tərəfindən geniş şəkildə təqdim edilibdir. Sərgidə otaq və giriş qapılarının, eləcə də bağ evləri və ofislər üçün metal və avtomatik açılıb-bağlanan qapıların geniş çeşidi ilə tanış olmaq mümkün olubdur. Ənənəvi olaraq, sərgidə dam materialları və taxta emalı məmulatları geniş təqdim edilibdir.

**“Xəzər inşaat həftəsi”nin yenilikləri**

“WorldBuild Baku” sərgisi həmişə öz ziyarətçilərini yeni məhsullar ilə tanış edir və bu məhsullar daha sonra tədbirin veb-saytındakı yeni məhsulların xüsusi elektron kataloquna daxil edilir. Bu il təqdim edilən yeni məhsullar arasında yüksək işıq axını olan, enerjiyə qənaət edən fitinqlər (“Lena Lighting”); “FAB Boya” şirkətindən yeni alçı növləri; istilik nazimçarxı (“ELBİ”); tikintidə tətbiq üçün nəzərdə tutulmuş ballistik sipərlər (“Amii”); avtomatik yanğınsöndürmə çiləyiciləri (“WEFLO VALVE CO”); “TEKO” ASC şirkətindən “Ağıllı Ev” sistemi; kondensatorlu qazanlar (“ECOSTAR BURNERS”); içməli suyun molekulyar filtrasiyası üçün kompakt sistemlər (“Bluefilters Graphite New Line”) və bir sıra digər məhsullar yer alıbdır. Xüsusilə, milli qruplar öz stendlərində bir sıra maraqlı və innovativ material və məhsullar təqdim ediblər.

**İŞGÜZAR PROQRAM**

Builki sərginin fərqləndirici cəhəti Təşkilatçılar tərəfindən planlaşdırılmış fəal işgüzar proqramı olub. Belə ki, 19 oktyabr tarixində sərginin xarici iştirakçıları ilə yerli distributorlar arasında “B2B” formatlı görüşlər keçirilibdir. “B2B” formatlı görüşlər inşaat bazarının iştirakçıları arasında birbaşa görüş və danışıqların aparılması üçün əlavə səmərəli işgüzar platformaya çevrilmişdir.

20 oktyabr tarixində sərgidə Bakı Şəhər İcra Hakimiyyətinin və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi kimi maraqlı dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə xüsusi “VIP” tur keçirilmişdi.

Sərgiyə dəstək verən və bu tədbirdə öz stendi ilə iştirak edən Azərbaycan Memarlar İttifaqı ilə birlikdə sərginin bütün iş günləri ərzində gənc layihəçilərin iştirakı ilə seminar keçirilmişdi. Seminar iştirakçıları sərgidə təqdim olunan tikinti materiallarından istifadə etməklə, 2 gün ərzində yeni layihə yaratmalı idirlər. Daha sonra Azərbaycan Memarlar İttifaqı ən yaxşı işləri seçəcək və qalibləri elə sərgidə mükafatlandırdılar.

Bu il ilk dəfə olaraq “WorldBuild Baku” sərgisinin eksponentləri üçün Rüstəm Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyinə ekskursiya təşkil edilmişdi.

**DƏSTƏK**

“WorldBuild Baku” sərgisi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Memarlar İttifaqı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən dəstəklənir.

**TƏŞKİLATÇILAR**

Sərgilərin təşkilatçıları qismində “Iteca Caspian” MMC və onun tərəfdaşı Böyük Britaniyanın “ITE Group Plc” şirkəti çıxış edir. Sərginin uğuru “ITE Group Plc” şirkətinin beynəlxalq şirkətləri Azərbaycan sərgisində iştiraka fəal surətdə cəlb edən tərəfdaşlar şəbəkəsinin kollektiv fəaliyyəti nəticəsində təmin olunur. Onların arasında “ITE London”, “EUF” (Türkiyə), “GIMA” (Almaniya), “CEM” (BƏƏ), “Invernizzi Group” (İtaliya), “ITE China” (Çin) və “ITE Poland” (Polşa) şirkətləri var. 2017-ci ildə “Iteca Caspian” şirkətinin tərəfdaşları arasında rəsmi səyahət agentliyi “Premier Tour” şirkətləri, o cümlədən “Hyatt Regency” və “Qafqaz Point Hotel” mehmanxanaları (rəsmi otellər), eləcə də “AzExpoMontage” (rəsmi montajçı) yer alır.

Ənənəvi olaraq, təşkilatçılar sərgidəki fəaliyyətə yaradıcı şəkildə yanaşan və öz ekspozisiyaları, eləcə də fəal işi ilə seçilən sponsor, tərəfdaş və iştirakçıları fəxri sertifikatlarla təltif etdilər. Beləliklə, aşağıdakı nominasiyalar üzrə fəxri sertifikatlara bu şirkətlər layiq görüldü:

“Ən yaxşı korporativ üslub” - FAB PAINTS & CHEMICALS INDUSTRY LTD
“Ən yaxşı stend dizaynı” - KARVAN-L GRO UP OF COMPANIES
“Ən yaxşı stend təqdimatı” - NB GROUP OJSC
“Ən yaxşı standart quraşdırma” - DUBAI EXPORT DEVELOP MENT CORPORATION
“Müştəriləri cəlb etmək üçün ən yaxşı üsul” - AMII SP. Z O. O.
“Ən kreativ stend” - SOBSAN BOYA
“Ən çox ziyarət edilən stend” - SAFE LIFE LLC
“Ən parlaq stend” - ITACA CERAMIC PVT LTD
“Ən yaxşı debüt” - GEONA
“Ən yaxşı məhsul təqdimatı” - AKROLITHOS NATURAL STONES
“Ən yaxşı ölkə təqdimatı” - FEDERAL MINISTRY FOR ECONOMIC AFFAIRS AND ENERGY (BMWI)
“Ən orijinal stend” - FAKHRADDIN-K LLC
“Ən yaxşı şirkət təqdimatı” - GILAN INDUSTRIAL GROUP
“Ən yaxşı xidmət təqdimatı” - ALTIS GROUP OF COMPANIES MMC
“Uzun müddətli əməkdaşlığa görə” - NIMEX LLC
“Ziyarətçələr ilə ən aktiv işə görə” - PAKPEN PLASTIK BORU VE YAPI ELEMANLARI SAN.TIC.A.S.
“Sosial şəbəkələrdə ən aktiv işə görə” - KARTASH LTD MMC

Beləliklə, sərginin dörd günlük fəaliyyəti ərzində ziyarətçilərin sayı 8852 nəfər təşkil edib və onlar inşaat sahəsinin innovativ texnologiyaları ilə tanış ola biliblər.

2018-ci ildə 24-cü Azərbaycan Beynəlxalq İnşaat sərgisi 23-26 oktyabr tarixlərində keçiriləcək.
**#WorldBuildBaku**

Əlaqələndirici şəxs: Svetlana Hacıyeva
Tel.: +994 12 404 1008; Faks: +994 12 4041001;
E-poçt: prmanager@iteca.az; Veb-sayt: www.worldbuild.az, www.securika.az, www.aquatherm.az